**Korporativ Sosial Məsuliyyət Komitəsinin**

**İllik Hesabatı**

**BAKI – 2020**

**MÜNDƏRİCAT**

**GİRİŞ** ........ 3
Sosial layihələr ........ 4
Ekoloji layihələr ........ 6
Maddi yardım ........ 7

# GİRİŞ

“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilmişdir. “AzerGold” QSC ölkə ərazisində əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik “AzerGold” QSC-nin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Cəmiyyət fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və icmalara, habelə onların ayrılmaz hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır və bu təsirin ədalətli şəkildə tənzimlənməsi Cəmiyyətin Sosial Təsir və Məsuliyyət Siyasəti çərçivəsində həyata keçirilir.

“AzerGold” QSC-nin Sosial Təsir və Məsuliyyət Siyasəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, “Layihələrin maliyyələşdirilməsi zamanı ekoloji və sosial risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarəçiliyi üzrə Ekvator Prinsipləri”, “BMT-nin biznes və insan hüquqları üzrə Rəhbər Prinsipləri”nin tələbləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.

“AzerGold” QSC-nin Sosial Təsir və Məsuliyyət Siyasəti Cəmiyyətin nəzdində 2017-ci ilin oktyabrından etibarən fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Komitə kollegial orqandır və dövri olaraq fəaliyyəti barədə hesabatlar dərc edir. Komitə tərəfindən sosial məsuliyyət siyasətinin istiqamətləri üzrə icrası 1 il və daha artıq müddət tələb edən və ya hər il dövri olaraq keçirilməsi planlaşdırılan uzunmüddətli layihələr icra edilir.

“AzerGold” QSC-nin KSM çərçivəsində mütəmadi olaraq icra etdiyi layihələr ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Cəmiyyət cari ilin 24 yanvar tarixində ənənəvi olaraq hər il ölkədə korporativ sosial məsuliyyət siyasətinin təşviqi məqsədilə təşkil olunan “Milli Korporativ Sosial Məsuliyyət 2019” mükafatına ilk dövlət şirkəti kimi layiq görülmüşdür. “AzerGold”un 2019-cu ildə həyata keçirdiyi layihələrdən biri – Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi ilə əməkdaşlığı çərçivəsində icra edilmiş “Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliklərinə adaptasiyası” mövzusundakı təlim layihəsi BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədlərinə daxil olan iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə məqsədi əsas götürülərək müvafiq nominasiya üzrə seçilmişdir.

# SOSİAL LAYİHƏLƏR

## Şadax kəndinə yeni su xəttinin çəkilməsi

Layihə “AzerGold” QSC-nin fəaliyyət göstərdiyi “Çovdar” Filiz Emalı Sahəsininin yaxınlığında yerləşən kəndlərdə əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində icra edilmişdir.

Belə ki, Daşkəsən rayonunun Şadax kəndinin sakinlərinin müraciəti əsasında yaşayış məntəqəsinə yaxın mənbədən götürülən su nümunələrinin tərkibi müvafiq laboratoriyada yoxlanılaraq standartlara uyğunluğu təsbit edildikdən sonra yeni su xəttinin çəkilməsi və bulağın inşa edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Qərarə əsasən, Cəmiyyət tərəfindən suyun mənbə hissəsində toplanması məqsədilə ərazidə 15 $m^3$ tutumlu xüsusi anbar inşa edilmişdir. Daha sonra təqribən 2000 metr məsafədən su xəttinin çəkilməsi və yeni bulağın istifadəyə verilməsi ilə kənddə mövcud su probleminin həllinə əhəmiyyətli dərəcədə töhfə verilmişdir.

Layihə BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədindən biri olan təmiz suyun hər kəs üçün əlçatanlığının təmin edilməsi istiqamətində həyata keçirilən və ölkəmizin də könüllü olaraq qoşulduğu qlobal fəaliyyətə, qəbul etdiyi milli inkişaf prioritetlərinə əlavə töhfə vermək məqsədi daşıyır.

## “Kitab sovqatı” aksiyası

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə “AzerGold” QSC tərəfindən Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin dəstəyi ilə “Kitab Sovqatı” aksiyası keçirilmişdir. Aksiya çərçivəsində Daşkəsən rayonunun Çovdar, Quşçu və Şadax kəndlərində yaşayan 100-dən çox uşağa kitab və şirniyyatlardan ibarət hədiyyə bağlamaları təqdim edilmişdir. Kitablar daha çox 10 yaş ətrafındakı uşaqların psixologiyasına uyğun, ən çox bəyənilən və uşaqlarla yanaşı, böyüklərin də həvəslə oxuduğu dünya və yerli ədəbiyyat nümunələrindən seçilmişdir. Bu kitablar uşaqlara cəsarət, mübarizə, qorxmazlıq, arzularının arxasınca getmək, dostluq və sevgi kimi dəyərləri aşılayır. Aksiya əhalinin həssas qrupuna aid edilən uşaqların koronavirus pandemiyası dönəmində asudə vaxtlarını daha səmərəli keçirmələri üçün onları ən gözəl hədiyyə olan kitablarla təmin etmək məqsədi daşıyır.

## İanələr

23 mart tarixində “AzerGold” QSC-nin əməkhaqqı fondundan cəlb edilməklə Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli “Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanına əsasən yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna 300,000.00 (üç yüz min) manat məbləğində vəsait ianə edilmişdir.

Bununla yanaşı, Ordumuzun zəfəri ilə bitən Vətən müharibəsi dönəmində Cəmiyyətin əməkdaşları tərəfindən bir aylıq vəzifə maaşı məbləğində vəsait könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianə edilmişdir. Eləcə də Cəmiyyət tərəfindən Silahlı Qüvvələrin tələbatına uyğun zəruri əşyalardan ibarət bir neçə yük maşını cəbhənin müxtəlif istiqamətlərinə yola salınmışdır.

Bu çərçivədə reallaşdırılan təşəbbüslərin davamı olaraq Cəmiyyət tərəfindən Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinə həyata keçirdikləri genişmiqyaslı sosial yardım aksiyalarına dəstək məqsədilə 50,000.00 (əlli min) manat məbləğində vəsait ianə edilmişdir.

## Sosial dəstək aksiyaları

Cəmiyyət tərəfindən Daşkəsən rayonunun Çovdar kəndində yerləşən Kəlbəcər rayon 70 saylı tam orta məktəbin fasiləsiz internetlə təmin olunmasına maddi dəstək 2020-ci ildə də davam etdirilmişdir.

20 mart tarixində Novruz bayramı münasibətilə bir qrup aztəminatlı ailəyə bayram sovqatları paylanılmışdır. Sosial layihə Daşkəsən rayonunun Çovdar, Quşçu və Şadax kəndləri üzrə ünvanlı sosial yardım alan, aztəminatlı ailələri əhatə etmişdir.

24 aprel tarixində "AzerGold" QSC və Cəmiyyətin "Çovdar" Filiz Emalı Sahəsində fəaliyyət göstərən tərəfdaşları tərəfindən koronavirus pandemiyası ilə mübarizə çərçivəsində bir qrup aztəminatlı ailəyə yardım edilmişdir. Sosial layihə ümumilikdə 250-dən çox ailəni əhatə etmişdir.

Daşkəsən rayonunun "Çovdar" Filiz Emalı Sahəsinə yaxın ərazidə yerləşən kəndlərində əhalinin təsərrüfat fəaliyyətinə dəstək məqsədilə aparılmış cari abadlıq işləri nəticəsində biçilmiş otlardan 500 ədəd bağlama hazırlanaraq Cəmiyyətin əməkdaşları tərəfindən əsasən Çovdar kəndinin heyvandarlıqda məşğul olan aztəminatlı ailələrinə paylanılmışdır.

## Qanvermə aksiyaları

Cəmiyyət tərəfindən irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkənlərə dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə 16.04.2020 və 04.09.2020-ci il tarixlərində qanvermə aksiyaları təşkil edilmişdir.

# EKOLOJİ LAYİHƏLƏR

"AzerGold" QSC həyata keçirdiyi ekoloji siyasətə uyğun olaraq kəşfiyyat, hasilat və emal prosesi zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsinə çalışır. Monitorinq proqramının tələblərinə uyğun qaydada mütəmadi olaraq sahələrdə tozölçmə işləri həyata keçirilir, torpaq, su hövzələri və sututarlarından götürülən nümunələr əsasında təhlillər aparılır. İstehsalat prosesi nəticəsində yaranan bütün növ tullantılar qanuna müvafiq şəkildə idarə olunur.

"AzerGold" QSC ekoloji siyasətinin davamı olaraq istehsalat nəticəsində formalaşan civənin ətraf mühitə və insan sağlamlığına zərər vurmadan zərərsizləşdirilməsi istiqamətində tədbirlər həyata keçirir. Belə ki, tullantı qismində ayrılan 1 ton civə "Asia Mercury PTC.LTD" beynəlxalq şirkəti ilə imzalanmış müqavilə əsasında Papua-Yeni Qvineyaya ixrac edilmişdir. Tullantı qismində ayrılan civə kütləsi dünya təcrübəsində torpağa basdırılmaqla zərərsizləşdirilir və ya təkrar istehsalda istifadə edilməklə utilizasiya edilir. Qeyd olunan ilk üsul torpağı istifadəyə yararsız hala gətirməklə yanaşı, bütövlükdə ekosistemə, həmçinin insan orqanizminə təhlükə yaradır. Civənin təkrar istifadəyə yönləndirilməsi məqsədilə satışı isə ekoloji cəhətdən daha məqbul və təhlükəsiz həll yolu hesab edilsə də, çoxsaylı icazələrin alınması və mürəkkəb tələblərlə müşayiət edilir. Bu kimi amillər və sosial məsuliyyət siyasəti nəzərə alınmaqla Cəmiyyət tərəfindən daha mürəkkəb yol seçilmişdir. Nəticədə civə kütləsi təkrar emalda istifadə olunması məqsədilə ixrac edilmişdir. Bununla da, "AzerGold" QSC ətraf mühitin mühafizəsinə daha bir töhfə verməklə yanaşı, civə ixracından gəlirin əldə edilməsinə nail olmuşdur. Beləliklə, "AzerGold" QSC beynəlxalq qanunvericiliyə uyğun, BMT-nin "Minamata" və "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında" Bazel konvensiyalarının tələbləri nəzərə alınmaqla civənin ikinci dəfə ixracını reallaşdırmışdır. Qeyd edək ki, sözügedən konvensiyalar təhlükəli tullantıların, xüsusilə də civənin istehsalı və ticarətinin tənzimlənməsini, ətraf mühitin antropogen təsirlər nəticəsində atılan civə və onun birləşmələrindən qorunmasını ehtiva edir.

Yaşıllıq sahələrinin artırılması və ekoloji tarazlığın təmin edilməsinə töhfə vermək məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə "Çovdar" mədənində ağacəkmə aksiyası keçirilmişdir. Aksiya çərçivəsində təqribən 4 hektar ərazidə ümumilikdə 3000 göyrüş, ağcaqayın və akasiya tingləri əkilmiş, həmçinin xüsusi ayrılmış əraziyə palıd, göyrüş və ağcaqayın toxumları səpilmişdir. Yeni əkilən ağac tingləri və toxumlar suvarılaraq onlara aqrotexniki qaydada qulluq göstərilmişdir.

## MADDİ YARDIM

Komitəyə il ərzində mütəmadi olaraq müxtəlif sosial həssas qruplara daxil olan şəxslərdən maddi yardımla əlaqədar 43 sorğu daxil olmuşdur. Bu sorğuların 16.7 %-i müvafiq yoxlama tədbirləri icra edildikdən sonra müsbət dəyərləndirilmiş və 7 nəfərə ölkə üzrə orta aylıq əməkhaqqı nəzərə alınmaqla, ümumilikdə 5500 manat məbləğində birdəfəlik maddi yardım edilmişdir.